**İdris Şükürlü,**
**tədqiqatçı-jurnalist**



# Eldar Tahir roman yazır

## Yazıçının "Əlirza yaylağı" əsərinə bir nəzər

**Müasir dövrdə şeirlə yanaşı, roman yazmağa, qalın cildli, nəfis tərtibatlı kitablar çap etdirməyə, sonra bir kitabları təbliğ etməyə, onları ədəbi-tənqidi məqalələr həsr etməyə maraq və meyl artmışdır. Burada "tənqidi" sözünü işlətməmək də olardı. Çünki indi poeziya olsun, nəsr olsun heç kəs bu barədə yazanda, danışanda tənqidi fikir söyləməyə meyl etmir. Yazıçının könlünə dəymək istəmir.**

### *Nəticədə*

müəllif "rəndələnmədiyi üçün" ilk baxışda şöhrət tapsa da, bundan ədəbiyyat, romançılıq itirir. Yəni, əslində, yazıçı ilə yanaşı, cəmiyyətdə ciddi əsərlərə ehtiyac boşluğu yaranır - çox yazılsa da, belə əsərlər çox kənara çıxa, hadisəyə çevrilə, hamının ola bilmir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubovanın "Nəsr: nəzəriyyə və yaradıcılıq texnologiyaları" məruzəsində bədii nəsrin müxtəlif formalarında (roman, povest, hekayə) yazılmış yüzdən çox nümunəsinin təhlilini təqdim edir: "Ötən ilin nəsrinə mətnnəzəriyyə meyarı ilə yanaşdığımızda, məlum oldu ki, çap olunmuş əsərlərin böyük əksəriyyəti mətn ola bilmir, müəllif kitabı və ya əsəri olaraq qalır. Nəsrin mətni ola bilməsi üçün nasirin hekayəsi statusu müəllif statusundan üstün olmalıdır..." Bu barədə çoxlu misallar çəkmək olar.

### *Qəzet və jurnallarda*

bəzən elə roman və povest oxuyuruq ki, onlara sadəcə əsər demək mümkün deyil. Ona görə ki, janrın tələbləri pozulur, həmin yazılar yaddaqalan mətn ola bilmir, hadisəyə çevrilmir, sənətkarlıq və ideya-məzmunca aşağı səviyyədə olur. Bir sözlə, əsər ola bilmir.

Tənqidçi Məti Osmanoğlu ötən il "525-ci qəzet"də jurnalistin ona ünvanladığı "İndi yaranan bədii mətnlərin çatışmayan əsas cəhəti nədir?" - sualına belə cavab verir: "Mənə elə gəlir ki, bugünkü həyatımız, həyatın ritmi, ahəngi çatışmır. Ədəbiyyat, sanki daha çox həyatdan kənarda nələrisə axtarır. Mən müasir ədəbiyyatda özümün, müasirlərimin həyatını, problemlərini, sevinclərini, faciəsini nə dərəcədə görə bilirəm? Məsələ budur!"

**Tam razıyam. İndi bəzi romançılarımız fantastik aləmə, real olmayan hadisələrə, illüziyaya, detektiv əhvalatlara çox meyl edirlər. Mövzular həyatdan gəlmədiyi üçün özlərindən əhvalatlar quraşdırıb geniş təsvir edirlər, bu da inandırıcı görünmür və ya süni təsir bağışlayır, oxucu belə əsəri oxumur. Çox təəssüf ki, bu, belədir...**

Böyük rus klassiki Aleksandr Blok yazırdı: "Yazıçı dünyaya ona görə gəlib ki, ürəyi mənəvi acların qarşısında üsyan etsin... Rus həyatından yox olmuş həqiqəti geri qaytarmaq bizim yazıçı borcumuz, yazıçı işimizdir..."

### *Bu mənada*

dörd romanı ilə yazıçı statusu almış Eldar Tahirin bu missiyanı yerinə yetirmək, müşahidə etdiklərini, öyrəndiklərini, ötən əsrdə baş vermiş və xalqa dar çərçivədə təqdim olunmuş həqiqətləri, xalqının, millətinin əlindən alınmış milli-əxlaqi dəyərləri, həyat tərzini geri qaytarmaq, oxucuya çatdırmaq üçün qələm-kağıza sarılmış, maraqlı obrazlar qalereyası yaratmışdır. "Bildərə" (2012), "Əlirza yaylağı" (2014), "Ata sorağında" (2017), "Ana həsrətində" (2019) roman-kitablarında təsvir olunan insanların psixoloji halda daxili aləminin təsviri, hadisələrin dinamizmi, obrazların mübarizəsi, sevgisi, istək və arzuları, şəxsi taleləri, psixoloji yaşantıların milli ictimai-sosial problemlər səviyyəsinə qaldırılması, millimənəvi xarakter yaratmağa xidmət edir.

### *"Əlirza yaylağı" romanında*

Polad və Həsənəli heç də şöhrətə aludə olmurlar. Onlar haqq-ədalət, birlik uğrunda mübarizə aparır, yolun hayana olduğun görür, xalqı bəd əməllərdən qorumağa çalışırlar. Romanın baş qəhrəmanı Poladdır. Poladın rəmzi mənası var: o polad kimi möhkəm, əyilməzdir, mərddir, sahib olduğu dəmirçilik sənətini yaşatdıqca, özü də dəmir iradəyə malik olur.

**Lakin o, burulğan içərisindədir: Mübarizə edərkən bəzən tərəddüd edir, vəziyyətdən çıxmaq üçün yollar arayır. Bir dəstə ilə azadəlik qazanmağın çətin olduğunu bilir.**

Polad yaşadığı rejimə qarşı etiraz edir, kəndini tərk edərək dağlarda elin igidlərinə qoşulur. Tayfa ağsaqqalı, nəslin görkəmli nümayəndəsi Əlirza vəsiyyətinə görə yurdun yaylağında dəfn edilir. Bunun rəmzi mənası var: qoy bu yaylaqda babaların ruhu yaşasın, yadellilər torpağa sahib durmasınlar, övladlar elə-obaya arxa-dayaq olsunlar...

Eldar Tahir romanda cənub bölgəsinin ilk xanı olan Qara xandan başlayaraq Mirhəsən xana qədər olan Lənkəran xanlığının şəcərəsini qələmə alır. Müəllif xanlığın rus imperiyası tərəfindən daim sıxışdırılmasını, ermənilərin Qarabağa, Azərbaycanın digər ərazilərinə köçürülməsini ustalıqla göstərir.

**"Əlirza yaylağı" romanı maraqlı hadisələrlə zəngindir. Xüsusilə də Mir Həsən xanla bağlı yazıçının təsvir etdiyi epizodlarda. Burada bir qədər geniş dayanmağa ehtiyac var.**

Mir Mustafa xan 1814-cü il iyul ayının 26-da vəfat edir, yerinə böyük oğlu Mir Həsən xan keçir. Bu zaman Mixail Sergeyeviç İlinski adlı bir mayor Lənkərana göndərilir, o, Petroqradda Petrojenski polkunda xidmət etmiş, sonra öz qulluq yerini dəyişdirmiş, Kaspi batalyonuna xidmətə göndərilmiş, eyni zamanda Lənkəran qalasının komendantı təyin edilmişdir.

### *Mayor İlinski*

Lənkəran xanlığında ona aid olduolmadı hər işə qarışırmış, əhali arasında, xanlıqda fitnə-fəsad yaratmış, ara qarışdırmaqla məşğul olmuşdur. Ona görə də Mir Həsən xan xanlığı idarə edə bilmirdi. İş o yerə çatmışdı ki, mayor İlinski Mir Həsən xanın əmlakının 2/3 hissəsini zəbt etmiş, ona məxsus torpaqların çoxunu onun əlindən almışdı. Ona görə də Mir Həsən xan Rusiya dövlətindən narazı qalmış, çar ordusunun zabiti İlinskiyə nifrət etmişdir.



Mənbələrdən məlum olur ki, İlinski əhalini qarət edərək, sərvət toplamaqla məşğul olmuşdur, pozğun bir həyat sürmüşdür.

Bu nifrətəlayiq mayor Mir Həsən xana hədə-qorxu gəlir, cinayətlər törədirdi... Değ, Alərü və Züyən mahalının əyanları və camaatı ayağa qalxır, çar hökumət idarələrinə etiraz edir, mayor İlinskinin və rusların Talışdan çıxarılmasını tələb edirlər. Talışda qalxan üsyandan vahiməyə düşən mayor İlinski adamlarıyla bərabər Sara adasına çəkilirlər. Vəziyyət olduqca gərginləşir. Mir Həsən xan Bəlləbur qalasına çəkilir və orada öz mövqelərini möhkəmlədir.

**"Əlirza yaylağı" romanında "Bu günün işini sabaha qoymaq olmaz", "Kişinin sözü bir olar" bölmələrini yazıçı Eldar Tahir ustalıqla qələmə almış, tarixi hadisələri saf-çürük etmişdir.**

**Əsərin ("Əlirza yaylağı") sonunda maraqlı məqamlara toxunmaqla oxucunu həyəcanlandırır, düşündürür, onu müasir dövrdə baş verən ictimai-siyasi hadisələrin baş verməsi səbəblərinə yönəldir. Vətənin, torpağın müqəddəsliyini, nəsildən-nəsilə əmanət qaldığını önə çəkir. Bildirir ki, ötən əsrlərdə də, indi də tarixi düşmən əzəli və əbədi torpaqlazımız üçün yerikləyir, onun sərvətlərinə sahib durmaq istəyir. Bu yolverilməzdir!**

Əsərdə diqqət mərkəzində duran Polad və Həsənəli Mir Həsən xanı və onun yaxınlarını gecə ikən Lənkəranın ərazisindən çıxarır, Cəngəmiran mahalının hakimi, mərd və vətənpərvər, torpaq, yurd təəssübkeşi Nurulla bəyin evinə çatdırır, Nurulla bəy xanı ehtiramla qarşılayır, xanı Ərdəbil şəhərinə ötürürlər.

### *Rus çarının və İran şahlığının*

ortalığında qalmış Talış vilayətində əhalini dinc yaşamğa qoymurlar. Bu yağlı tikəni heç biri əldən vermək istəmir. Bilmək olmur kimin külü kimin başındadır...

**Romanın sonu heç də nikbin notlarla bitmir. Bunu yazıçının günahı hesab etmək olmaz. Çünki əsərdəki hadisələr inkişaf edərək kuliminasiyaya çatır, yazıçının təsvir etdiyi qəhrəmanların istəyi hasil olmur. Mir Həsən xan bir neçə dəfə hücum edib Lənkəranı, Astaranı, Dırığ, Vergədüz mahallarını azad etmək, xanlığın xilası üçün cəhd göstərir. Lakin xanlığı bərpa etməyə onun qüvvəsi çatmır.**

Qoşuna Ərdəbildən gələn yüzbaşılar başçılıq edirlər, süvari dəstələri möhkəmlənirlər. Astara və Biradigo istiqamətində hərəkət edən atlı dəstələrin qabağını ruslar kəsir. Topların gurultusu aləmə yayılır, ruslar üstünlük təşkil edir. Mir Həsən xanın əmri ilə süvari qoşun geri çəkilir, Talış xanlığının hakimiyyətinə son qoyulur. Cənub diyarı yenə də çar rejiminin əsarəti altına keçir. 1831-ci ildə çar rejiminə qarşı yenidən üsyan başlayır...

Roman janrının ən yaxşı tədqiqatçılarından biri, tanınmış rus ədəbiyyatşünası D.Qranin yazırdı: "Roman janrı insanı və onun dünyasını bütün zənginliyi, mürəkkəbliyi ilə əksetdirmə imkanına malikdir. Roman elə bir yaradıcılıq meydanıdır ki, onda müasirliyin ən aktual, aparıcı problemləri həll oluna bilər.

### *Roman*

tarixi prosesləri, tendensiyaları, tarixi gerçəkliyi, tarixdə baş verən ideyalar mübarizəsini əks etdirərək ictimai məzmun kəsb edir, tarix yaradır".

Roman janrının ədəbi-bədii, estetik, ictimai, sosial xəlqi və milli qayəsinin imkanlarından istedadla istifadə edərək oxucunu silkələyən əsər nümunələri yaratmaq həmişə aktualdır. Həyati faktlara, baş verən hadisələrə yeni münasibət, qlobal məna verməyi, bədii məntiqin gücünə yiyələnməyi, obrazların şəxsi taleyinin, psixoloji yaşantılarının milli, ictimai-sosial problemlər səviyyəsinə qalxaraq milli xarakter yaratmağa xidmət etməlidir.

Eldar Tahirin adı çəkilən romanları nöqsanlardan xali deyil. Yazıçı romanlarında D.Qraninin qeyd elədiyi kimi gerçəkliyi əksetdirmə imkanlarından səmərəli istifadə etməklə müasirliyin ən aktual, aparıcı problemlərinin həllinə diqqəti artırmalı, tarixi gerçəkliyi və ideyalar mübarizəsini daha dolğun və inandırıcı əks etdirməli, əsərə ictimai məzmun verərək tarixi xronologiya yaratmağa daha çox diqqət yetirməlidir.

**Onda əsl romandan danışmaq olar!..**